# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 01-02-03-04 (7625-7626-7627-7628) * 7 Aprel 2025-ci il * İctimai-siyasi qəzeti * Qiyməti: 60 qəpik



## Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi

**Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Ttəbrikdə deyilir:**

"Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram.

Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur.

Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir.

Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şövqlə qurub yaradacaqlar.

Üzümüzə gələn Novruz bayramının hər evə, hər ocağa firavanlıq, səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Bayramınız mübarək olsun!"

## Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi

**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

**Ttəbrikdə deyilir:**

"Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanları gözəl niyyətlər və savab əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq və bərabərlik yoluna dəvət edir. Bu ayda müsəlmanlar oruc tutmaqla Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi kamilliyə ucalmaq fürsəti qazanırlar.

Orucluq mərasimləri bütün İslam aləmində olduğu kimi, Azərbaycanda da hər il böyük fərəh və məmnunluq hissi ilə keçirilir. Ölkəmizdə milli-mənəvi həmrəyliyin, humanizmin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən Ramazan ayında dövlətimizin rifahı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad olunur. İnanıram ki, insanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran mübarək Ramazan günlərində dua və dilәkləriniz, saf niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza Ramazan təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!"

# Ürəklərdə yaşayan mehriban ana, qayğıkeş insan



## Akademik Zərifə Əliyeva haqqında deyilmiş fikirlər:

Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

***Heydər Əliyev, Ümummilli lider.***

Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur.

***İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti.***

Zərifə Əliyevanı öz sahəsinin məşhur alimi hesab edirəm.

***A.Nestorov***

Zərifə xanım mənim xatirimdə hər zaman Azərbaycan qadınlarının, azərbaycanlı anaların təcəssümü, idealı kimi yaşayır.

***Fəxriyyə Xələfova***

Zərifə Əliyeva qayğıkeş ana, vəfalı həyat yoldaşı və səmimi iş yoldaşı idi.

***Turqay Məmmədova***

Zərifə xanım Əliyeva müdrik, yüksək mədəniyyət və elm sahibi olmaqla yanaşı incə hissiyata malik insan idi. Onun bədii duyumu, bədii istedadı bənzərsiz idi.

***Valentin Aleksandrovna***

Zərifə Əziz qızı Əliyeva ən qiymətli insani keyfiyyətlərə malik idi. Onlardan ən əsası insanlara xeyirxahlıqla bağlıdır.

***N.A. Puçkovskaya***

***Hər bir insan özünün həyat yolunu müəyyənləşdirəndə qarşılaşacağı çətinliklər barədə də ciddi düşünməli olur.Fikirləşir ki,istedad və zəhmət birləşəndə bütün çətinliklərin öhdəsindən gəlmək mümkündür.Məhz belə insanlar təkcə özlərini yox,bəşəriyyətin,insanların taleləri barədə daha çox düşünürlər.***

Azərbaycan xalqının dünyaya bəxş etdiyi belə insanlardan biri də həmişə adını qürurla çəkdiyimiz akademik Zərifə xanım Əliyevadır.

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onun fəaliyyətinə nəzər salarkən, bir daha bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim, həkim üçün həyat və mənəviyyat dərsi, kamillik, müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb və yazılacaq. Çünki Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Biz bu haqda nə bilirik? Bu sətirləri oxuduqca qəlbimiz iftixar hissi ilə dolur.

Bu gün bütün səviyyələrdə etiraf olunur ki, akademik Zərifə xanım Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsinə, o cümlədən, Azərbaycanda traxomanın kökünün kəsilməsinə böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparmışdır. Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır.

Zərifə xanımın elmi fəaliyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə apardığı tədqiqatlardır ki, onların da nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmləşmişdir. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və s. əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur. Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan "İridodiaqnostikanın əsasları" rəngli illüstrasiyalarla "Azərnəşr" tərəfindən, digər monoqrafiya isə "İridodiaqnostika" adı ilə 1988-ci ildə Moskvada nəşr edilmişdir. Qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır.

Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə oftalmologiyasına həsr edilmişdir. Zərifə xanım, sözün əsl mənasında, bu sahənin ilk pioneri olmuşdur. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin, "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktika tədbirlərini işləyib hazırlamışdır. Onun bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyyatında analoqu olmayan nadir tədqiqatlar sırasındadır.

Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisələrində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Göstərilən istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalatında gözün peşə patologiyası", "Xronik yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi qiymətli monoqrafiyalarında öz əksini tapmışdır. Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Məşhur oftalmoloq akademik M.Krasnov Zərifə xanımın görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək qeyd etmişdir ki, əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kəşflərin rəhbəri ola bilərdi.

Ülvi keyfiyyətlərə malik olan akademik Zərifə xanım Əliyeva öz elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə xüsusi yer vermişdir. O, bu mövzuya dair baxışlarını oftalmoloji ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmış "Həkimin yüksək vəzifəsi" və "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında ətraflı işıqlandırmışdır. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı şəkildə əks olunmuşdur. Zərifə xanım dəfələrlə deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Alim həkim-xəstə münasibətlərinə toxunaraq, insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş, "həkim xəstənin ən doğma adamıdır" demişdir. Zərifə xanımın tibbi etika və deontologiyaya dair məqalə və əsərləri ilə yaxından tanış olduqda, onun bu sahəyə dair işlərinin daha geniş miqyasda olduğu və təkcə tibbdə deyil, bütövlükdə cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edildiyi məlum olur.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında tarixi sözlər demişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı "oftalmologiyanın mirvarisi" adlandırırdı. Dünya şöhrətli oftalmoloq akademik A.Nesterov demişdir: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi". Akademik N.Puçkovskaya "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Professor N.Şulpina Zərifə xanımı dünya şöhrətli alim adlandıraraq, "biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik" demişdir.

Praktik əməli həkim fəaliyyəti ilə yanaşı, Zərifə xanım elmi axtarışlarını davam etdirirdi. Onun ilk tədqiqatlarının mövzusu həyatdan götürülmüşdür. Özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə, traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr etmişdir. Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi"ndə mövzusunda müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil etmişdir. 1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva professional oftalmologiyanın məsələləri ilə ciddi məşğul oldu. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri probleminə dərin və çoxsahəli marağını Zərifə xanım Əliyeva bütün həyatı boyu itirməmişdir. Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin, "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etdi. 1976-cı ildə Q.Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndirdilər.

Bütün bu elmi fəaliyyəti ilə yanaşı Zərifə xanım, eyni zamanda, qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olmuşdur. Deyirlər, ana övladını özündən də çox istəyir. Tanrının bəxş etdiyi övladlarına qarşı Zərifə xanım da məhz belə ana idi. Enişli-yoxuşlu ömür yollarında birgə addımladığı həyat yoldaşı, ümummilli liderimiz Heydər Əliyev gərgin fəaliyyətlə məşğul olan, həyatını bütövlükdə Azərbaycana həsr edən böyük şəxsiyyət kimi yorulmadan müqəddəs amallar yolunda öz qüvvəsini əsirgəmirdi.

Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır. Unudulmaz alim, qayğıkeş ana olan Zərifə xanım xalqımız tərəfindən ehtiramla yad olunmağa layiqdir.

***Svetlana Verdiyeva,***
***Tovuz rayon Qeydiyyat Şöbəsinin rəisi***

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərənin Həsənriz kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıblar

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərənin Həsənriz kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıblar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.

Dövlətimizin başçısı sakinlərlə görüşüb söhbət etdi.

**Prezident İlham Əliyev:** Salaməleyküm. Xoş gördük, bayramınız mübarək olsun!

**Sakinlər:** Salam, xoş gəlmisiniz, Sizin də bayramınız mübarək olsun, Ramazan bayramınız da mübarək.

**Prezident İlham Əliyev:** Necəsiniz?

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident, Sizinlə həmsöhbət olmaq bizim üçün şərəfdir. Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz. Nə vaxt gəlmisiniz?

**Kişi sakin:** Biz mart ayının əvvəlindən - 3-dən buradayıq.

**Prezident İlham Əliyev:** Artıq yerləşmisiniz.

**Kişi sakin:** Bəli, yerləşmişik, çox gözəldir. İnanın ki, bura həmişə arzumuzda olub, o dağların arxasından buraya həsrətlə baxmışıq. İndi hər şey gerçəkliyə çevrilib.

**Qadın sakin:** Allah Sizdən razı olsun ki, bu günü bizə yaşatdınız.

**Prezident İlham Əliyev:** Sağ olun. Bu gözəl bayram günündə artıq sizinlə birlikdə burada olmaq mənim üçün də çox xoşdur. Həsənriz kəndi qədim Azərbaycan kəndidir, bilirsiniz. Burada Azərbaycan xalqı əsrlər boyu yaşayıb, hətta çar Rusiyası dövründə dərc edilmiş xəritələrdə Həsənrizin adı var - Həsənriz kəndi. Qanunsuz olaraq Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılandan sonra ermənilər başqa yerlərdən gətirilərək burada məskunlaşdırıldı və bunun adı da dəyişdirildi. Artıq adını da bərpa etdik, tarixi ədaləti də bərpa etdik, Azərbaycan xalqı da buraya qayıdıb, indi rahat, xoşbəxt yaşayacaq.

**Kişi sakin:** Ədalət də bərpa olundu. Hamısı Sizin sayənizdə.

**Qadın sakin:** Allah Sizi qorusun, ailənizi qorusun. Sizin və güclü siyasətinizin sayəsində biz bu gün firavan yaşayırıq.

**Digər kişi sakin:** 33 ildən sonra bizi doğma Vətənə, ata-baba yurduna qaytarmağınız bizim üçün böyük səadətdir, eyni zamanda, elimiz-obamız üçün yeni həyatın başlanğıcıdır. Dediyiniz kimi, bu bölgələr bizim ulu babalarımızın vətəni olub. O cümlədən onu da qeyd edim ki, bizim əzəli və əbədi düşmənlərimiz bu bölgəni böyük güclər hesabına işğal etmişdir. Amma Sizin komandanlığınız altında Azərbaycan Ordusu cəmi-cümlətanı 23 saata işğala son qoymuşdur. Çox sağ olun, cənab Prezident, Siz Azərbaycan xalqının, o cümlədən dövlətimizin gücünü dünyaya bəyan etdiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, biz tarixi ədaləti bərpa etməli idik, beynəlxalq hüququ bərpa etməli idik və öz haqqımızı bərpa etməli idik. Ona görə İkinci Vətən müharibəsindən keçən üç il ərzində biz gələcək planlarımız haqqında həm düşünürdük, həm çalışırdıq və əlbəttə ki, separatçıların hər hansı bir formada bu bölgədə qalmaları qeyri-mümkün idi. Biz burada məskunlaşdırılmış erməni əhalisinə də o vaxt təklif etmişdik ki, gəlin, Azərbaycan Bayrağı altında yaşayın, Azərbaycan vətəndaşlığını qəbul edin və burada sizə söz deyən olmayacaq. Bu gün də Xankəndi şəhərində erməni əhalisi var, onlara söz deyən yoxdur, əksinə, bizim sosial işçilərimiz onlara qayğı göstərirlər. Bax, bizim xalqımızın böyüklüyü bundan ibarətdir. Onlar isə bizi bu torpaqlardan, qədim torpaqlarımızdan didərgin salmışdılar, soyqırımı törətmişlər, Azərbaycan xalqına olmazın əzablar vermişdilər, xalqımızın böyüklüyü məhz bundadır. Biz haqlı olan tərəfik, həm işğal dövründə öz haqq səsimizi ucalda bilmişik və bütün dünyaya sübut edə bilmişik ki, bu, bizim tarixi və hüquqi torpağımızdır. Həm də İkinci Qarabağ müharibəsi dövründə baxmayaraq ki, Ermənistanın arxasında bir çox ölkələr, bir çox qüvvələr dayanmışdı, heç kim bizə əsaslı irad tuta bilməmişdi. Çünki biz beynəlxalq hüquq çərçivəsində öz torpağımızda müharibə aparırdıq. O cümlədən cəmi bir neçə saat çəkən antiterror əməliyyatı zamanı da bizə qarşı siyasi, ondan sonra digər hərəkətlər olsa da, onların heç bir nəticəsi olmadı. Beynəlxalq təşkilatlarda Ermənistanın havadarları Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə, digər addımlar atmağa çalışdılar, buna nail ola bilmədilər. Haqq-ədalət bizim tərəfimizdədir. Həsənrizin azad olunmasının təməli məhz İkinci Qarabağ müharibəsi zamanı qoyulmuşdur. O vaxt artıq Qarabağın böyük hissəsi işğalçılardan azad edilmişdir. İkinci Qarabağ müharibəsindən sonra bir neçə əməliyyat nəticəsində mövqelərimizi daha da yaxşılaşdırdıq ki, ən qısa müddət ərzində az itki verməklə bütün qalan yerləri də nəzarətə götürək. Bu gün Həsənrizdə İlaxır çərşənbə günündə görüşürük. Sizi, Azərbaycan xalqını bayram münasibətilə təbrik edirəm. Ramazan bayramı da gəlir, Novruz bayramı da gəlir, bu gözəl bayram günündə, bayramlar ərəfəsində sizinlə görüşmək böyük məmnuniyyət doğurur.



**Sakinlər:** Sizin də bayramlarınızı təbrik edirik. Siz Ali Baş Komandan kimi Qələbəni təmin etdiniz.

**Prezident İlham Əliyev:** Allah şəhidlərimizə rəhmət eləsin, biz bu torpaqları onların qanı-canı bahasına azad etmişik.

**Kişi sakin:** Bu kənddən çıxanda o Murov yolunda nə zillətlər görən camaat indi toy-bayramla qayıtdı. 34 ildən sonra hamı sevinclə buraya qayıtdı.

**Prezident İlham Əliyev:** O vaxt işğal dövründə camaat buradan Murov yolu ilə çıxmışdı?

**Kişi sakin:** Bəli, qoca qadın evdə yanıb, çarpayıda sümükləri qalmışdı. O, mənim nənəm idi. O cür əziyyətlər yaşamışıq.

**Prezident İlham Əliyev:** O tərəf, yəni artıq buradan keçmək mümkün deyildi, bağlanmışdı? Suqovuşan tərəf də bağlanmışdı?

**Kişi sakin:** Bütün buralar bağlı idi, yalnız Murov dağından Kəlbəcər tərəfdən nə zülmlərlə.

**Prezident İlham Əliyev:** Uzaq yoldu, neçə kilometr olar? 40-50 kilometr olar?

**Kişi sakin:** 58 kilometr hələ Kəlbəcərlə sərhədə qədərdir.

**Digər kişi sakin:** Şükür bu günə, Sizin, Ordumuzun sayəsində qayıtmışıq.

**Prezident İlham Əliyev:** Burada evlər bərpa edildi, yeni evlər də tikiləcək. İndi, birinci mərhələdə 163 ailə yerləşəcək.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Cənab Prezident, ümumiyyətlə, burada 606 ev var. İlkin olaraq 92 evi təmir etmişik, 50 ailə artıq köçüb. Yəqin ayın sonuna 40 ailə də köçəcək. Ondan sonra da iki mərhələdə 192 ev. Amma təklif edərdik ki, bütün infrastruktur bərpa edilsin.

**Prezident İlham Əliyev:** Bütün, hamısını. Bəli, hamısını. Siz təklif verin, onların hamısını bərpa edək. Çünki mənə verilən məlumata görə, artıq burada həm Həsənrizdə, həm də Kəlbəcər rayonunda yaşamış insanlar yerləşir.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Artıq buraya köçmək üçün 360 nəfər siyahıya alınıb.

**Prezident İlham Əliyev:** Bura çox gözəl, səfalı yerlərdir.

**Kişi sakin:** Şuşa ilə bərabər yerdir, relyefi də oxşardır.

**Prezident İlham Əliyev:** Bəli, Şuşadan üstünlüyü ondadır ki, Sərsəng su anbarı da var, orada balıq tutmaq olar. İş yerləri ilə bağlı nə işlər görülür?

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Böyük kənd olduğuna görə burada 13 təsərrüfat subyekti ilə, obyektlərlə bağlı müraciətlər olub. Bundan başqa, yaxın yerlərdə, icazə versəydiniz, fermalar var, o fermaları icarə verərdik.

**Prezident İlham Əliyev:** Əlbəttə. Bir də ki, əkin sahələri verilməlidir, əkin-biçinlə məşğul olsunlar. Heyvandarlıq üçün bura ən yaxşı yerdir.

**Kişi sakin:** Bu sakinlər hamısı heyvandarlıqla məşğul olublar. Cənab Prezident, əmin edim ki, bizim kənddə müxalifətçi olmayıb. Bizim kəndin camaatından bir adam fikirləşə bilmirdi ki, kimsə müxalifətçi olub. Heç vaxt. Hamımız təsərrüfatla, dövlətə qulluqla məşğul olmuşuq. İndi də inanmıram, görməmişik, eşitməmişik.

**Prezident İlham Əliyev:** Olsa da bir problem yoxdur. Əsas dövlətə, dövlətçiliyə müxalifətdə olmasınlar.

**Kişi sakin:** Ümumiyyətlə, bizə gülünc gəlir.

**Prezident İlham Əliyev:** Özlərini müxalifətçi adlandıran bəziləri dövlətə qarşı, o cümlədən İkinci Qarabağ müharibəsi dövründə, antiterror əməliyyatı dövründə, indinin özündə ermənilərlə birləşib. Bu, dövlətə qarşı düşmənçilikdir və əslində, xəyanətdir.

**Kişi sakin:** Bəli, bəli, xəyanətdir.

**Prezident İlham Əliyev:** Ona görə burada yaxşı təsərrüfatlar qurulmalıdır. İndi bizim İqtisadiyyat Nazirliyinin xətti ilə kredit xətləri açılmalıdır ki, kim mal-qara saxlamaq, əkin-biçinlə məşğul olmaq istəyir, burada su problemi olmamalıdır.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Düzdür cənab Prezident, bunlarla məşğul oluruq, su problemi də yoxdur.

**Prezident İlham Əliyev:** Bulaqlar var?

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Gözəl suyu var.

**Prezident İlham Əliyev:** İşıq var, qaz var, su da var, internet, istilik.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Hər həyətdə su var. Su, işıq, qaz, 500 nəfərlik məktəb, internet. Təmir olunan evlərin hamısında istilik.

**Prezident İlham Əliyev:** Məktəb də budur, onu da təmir etmişik.

**Kişi sakin:** Bəli, xəstəxanamız da var.

**Prezident İlham Əliyev:** Əlavə nə lazımdır?

**Kişi sakin:** Sizin sağlığınız.

**Qadın sakin:** Sizinlə qürur duyuruq hər zaman. İnsan həm sevinir, həm qürurlanır.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız? Laçınlısan?

**Qadın sakin:** Bəli, atam da birinci qrup Qarabağ qazisidir. Bir qazi övladı olaraq Sizə, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm ki, hər zaman şəhid ailələrinə və qazilərimizə dəyər vermisiniz.

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun.

**Sakinlər:** Bayramınız mübarək olsun, Allah Sizi qorusun cənab Prezident!

**Prezident İlham Əliyev:** Burada birlikdə şəkil çəkdirək.

**Mehriban xanım Əliyeva:** Tonqal da görünəcək.

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım kənd sakinləri ilə birlikdə Novruz tonqalını alovlandırdılar.

* * *

**Prezident İlham Əliyev:** Rahat yaşayın, xoşbəxt yaşayın. Siz 30 il əzab-əziyyət içində idiniz. Həm mənəvi əzab, həm də ki, qaçqın-köçkün kimi. O söz də artıq yavaş-yavaş lüğətimizdən çıxır.

**Sakin:** Ulu Öndər Heydər Əliyev vaxtilə deyirdi ki, Azərbaycan cəmiyyəti lazım gələrsə, istənilən çətinliyə tab gətirməyi bacarmalıdır. Məhz müstəqillik, azadlıq, güclü dövlət naminə. Biz Qələbə əldə etdikdə bir daha əmin olduq ki, Ulu Öndər nə qədər gözəl, qiymətli fikirlər söyləmişdir, ruhu şad olsun.

**Prezident İlham Əliyev:** Bəli, elədir. O vaxt Azərbaycan xalqının tələbi ilə hakimiyyətə gəlməsəydi, Azərbaycan tam məhv ola bilərdi. Əslində, 1993-cü ilə qədər gedən proseslər ona gətirib çıxarırdı. Həm torpaqlarımızın işğal altına düşməsi, həm daxili çəkişmələr, vətəndaş müharibəsi. Bütün bunların qarşısını Ulu Öndər almışdı və nizami ordu quruculuğu da onun adı ilə bağlıdır. Biz - onun davamçıları, sadəcə olaraq, onun yolu ilə gedərək ölkəmizi daha da gücləndirdik, bütün gücümüzü səfərbər etdik, “dəmir yumruğ”u yaratdıq, düşmənin başını əzdik, indi belə bayramları burada qeyd edirik. Bundan böyük xoşbəxtlik ola bilməz. Bir daha təbrik edirəm sizi. Bir daha bayramınız mübarək.

**Sakinlər:** Çox sağ olun. Uğurlar, Sizin də bayramınız mübarək.

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım Həsənriz kəndindəki Bayraq meydanında oldular. Burada üçrəngli Bayrağımız 17 metr hündürlüyündə dirəkdə dalğalanır. Bayraq meydanının yeri elə seçilib ki, buradan Həsənriz kəndi ilə yanaşı, digər kəndlərə də gözəl mənzərə açılır.

## TOVUZ RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI MƏMMƏD MƏMMƏDOV TOVUZLULARI NOVRUUZ VƏ RAMAZAN BAYRAMLARI MÜNASİBƏTİLƏ TƏBRİK EDİR,HAMIYA XOŞBƏXT HƏYAT,FİRAVANMLQ ARZULAYIR.

# Novruz bayramı təntənə ilə qeyd edildi












Tovuz şəhər Heydər Əliyev meydanında Novruz bayramı münasibətilə ümumrayon şənliyi keçirilmişdir.

Dədə Qorqud, Bahar qız, Kosa və Keçəl faytonda şəhər gəzintisi həyata keçirdikdən sonra meydana daxil olmuş və tədbir iştirakçılarını salamlamışlar.

Meydanın mərkəzində qurAşdırılmış rəmzi tonqal qalanmış, idmançıların ifasında tamaşalar nümayiş etdirilmiş, milli oyunlar, Novruz adət-ənənələri, milli xörəklər, şirniyyatlardan ibarət “Novruz” sərgisi iştirakçılara təqdim olunmuşdur.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, hüquq mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri meydanda sərgilənən Novruz adət-ənənələri ilə tanış olmuş, şəhid ailələrini,qaziləri və sakinləri bayram münasibətilə təbrik etmişlər.

Tədbirdə RİH başçısı Məmməd Məmmədov tovuzluları və qonaqları bayram münasibətilə təbrik edərək qeyd etmişdir ki, Azərbaycanı qədim sivilizasiyanın mərkəzi kimi tanıdan misilsiz dəyərlərdən biri də müqəddəs Novruzdur. Elə buna görə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Novruz bayramının YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edilməsi böyük nailiyyətidir. Cənab Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi ilə bu günlər ölkəmizin dayanıqlı inkişafına yönələn mühüm islahatlar həyata keçirilir. Xalqın rifahını daha da yüksəldən sosial paketlər uğurla icra olunur. Bu siyasət nəticəsində indən belə də hər bir vətəndaşımızı daha yüksək rifah və Azərbaycanı xoşbəxt gələcək gözləyir. Qoy bu Novruz hər evə, hər ailəyə, hər bir tovuzluya bayram ovqatı və sevinc gətirsin!

Bayram şənliyi rayon mədəniyyət və incəsənət işçilərinin təqdimatında geniş konsert proqramı ilə davam etdirilmişdir.

*“Tovuz”*

# Müəssisələrdə yığıncaqlar keçirilib, sovqatlar paylanıb





2025-ci ilin mart ayının 14-də Azərbaycan Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Tovuz Rayon Komitəsi müəssisələrdə yığıncaqlar keçirmiş, bayram hədiyyələri paylanmışdır. Yol İnşaat müəssiisəsi, Tural Firması, Qartal Firması, QARA Firması, MACİD MMC, ZEYNO MMC, Tepat Firmasında keçirilən yığıncaqlarda Tovuz Rayon Komitəsinin Sədri Nazim Quliyev Bahar bayramının ənənələrindən danışmışdır. Qeyd etmişdir ki, Türk xalqları Bahar bayramını min illərlə öncədən, İslamdan və Xiristianlıqdan qabaq bayram etməyə başlamışlar. . Xalqımız Böyük və Kiçik Çilləri (çətinliyi) qeyd etməklə, insanları Yazın gəlişinə həvəsləndirir, yeni ümidlər verir. Çillə çətinlikdən çıxmağın qeyd olunması deməkdir. İslamiyyətdə Həftənin beşinci günü - Cümə günü Müqəddəs gün hesab olunursa, Türk Xalqları digər Müqəddəs gün olan Həftənin ikinci gününü - Çərşənbə axşamı gününü də Müqəddəs gün kimi qeyd edirlər.

Bundan sonra həyatın varlığı olan dörd ünsürün çətinlikdən çıxmağı, yeni Suyun, Odun, Yelin və Torpağın oyanış günləri qeyd olunur. Su Çərşənbəsindən sonra, artıq sular donmur və təbiətin oyanışı başlayır. Od Çərşənbəsindən sonra, Günəş yeri daha çox qızdırmağa başlayır. Günəşin hərarətinin artması ilə bərabər Sular coşa gəlir və havanı hərəkətə gətirir - küləyi yaradır, bu da, üçüncü Çərşənbənin qeyd olunması günü olur. Suyun, Odun və Yelin oyanışı Torpağın oyanışına səbəb olur. Xalqımızın İlaxır Çərşənbə kimi qeyd etdiyi Torpaq Çərşənbəsi Yazın gəlişinə, yəni hər il mart ayının 20-nə yeddi gündən az qaldığına təsadüf etməlidir.

Daha sonra çıxışı zamanı qeyd edir ki, Bahar bayramının qeyd olunduğu gün (Mart ayının 20-də) Gecə ilə Gündüz bərabərləşir. Hər ötən gündə günəşli saatların miqdarı artır, havalar istiləşməyə başlayır. Torpağın oyanması ilə bağlı əkin işlərinə başlanılır, ağacların tumurcuğu açılır, torpaq yaşıllaşmağa başlayır. Həyat-bacalarda təmizlik işləri aparılır. Yeni il (Təqvim ili) yanvarın birindən qeyd olunsa da, ilin yenilənməsi Martın 21-dən başlayır. Ümum milli Liderimiz Heydər Əliyevin Hakimiyyəti dövründə (Sovet İttifaqı dövründə) Bahar bayramın Dinlə heç bir bağlılığının olmaması və bu bayramın təntənəli qeyd olunması rəsmiləşdirildi. Yenidən millətin Ümumxalq bayramına çevrildi və Dövlət səviyyəsində qeyd olunmağa başladı. Bu gün də, Respublikamızda eləcə də Tovuz rayonunda keçmiş ənənələrə hörmətlə yanaşılır və Dövlət səviyyəsində Ümumxalq bayramı kimi qeyd olunmaqda davam etdirilir.





Keçirilən yığıncaqlarda tədbir iştirakçıları Bahar bayramının Respublikamızda, Tovuz rayonunda eləcə də, müəssisələrdə yüksək səviyyədə keçirilməsindən, bayram tədbirlərinin təşkilindən məmnun qaldıqlarını bildiriblər. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevdən,Birinci Vitse Prezident Mehriban xanım Əliyevadan,Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədovdan, AHIK sədri Sahib Məmmədovdan və Azərbaycan Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi sədri Mirkazım Abbasovdan Bahar bayramının Ümümxalq bayramı kimi qeyd olunması təşəbbüslərindən məmnunluqlarını ifadə ediblər.

***Elməddin Əliyev***

# “Heydər Əliyev və Azərbaycan mədəniyyəti: Qorunan irs, inkişaf edən sənət” mövzusunda tədbir keçirilib

“Konstitusiya və Suverenlik İli” çərçivəsində Tovuz Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Tovuz Rayon Təşkilatı və Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycan mədəniyyəti: Qorunan irs, inkişaf edən sənət” mövzusunda tədbir keçirilib.

Tədbirdə Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini- İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova, YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin Tovuz rayonu üzrə nümayəndəsi Adil Həsənov və rayonun mədəniyyət işçiləri iştirak ediblər.

Tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, onun əziz xatirəsini dərin hörmət və ehtiramla yad etmişlər.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət Himni səsləndirilib.

Daha sonra mədəniyyət tariximizdən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə “Heydər Əliyev və Azərbaycan mədəniyyəti: Qorunan irs, inkişaf edən sənət” mövzusunda məruzəsi ilə çıxış edən YAP Tovuz Rayon Təşkilatının sədri Nihad Pənahov Ulu Öndər Heydər Əliyevin milli-mədəni dəyərlərin qorunması və inkişafı istiqamətində apardığı məqsədyönlü siyasətin əhəmiyyətindən bəhs etmiş, onun rəhbərliyi ilə milli mədəniyyətin müxtəlif sahələrində əldə olunan uğurlar barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir. O, həmçinin qeyd etmişdir ki, bu siyasət bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir.

Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini- İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova öz çıxışında Ulu Öndər Heydər Əliyevin mədəniyyət sahəsində gördüyü işlərin əhəmiyyətindən danışaraq qeyd edib ki, Ümummilli Liderin rəhbərliyi dövründə Azərbaycan mədəniyyətinə göstərilən diqqət və qayğı milli irsimizin qorunmasına və inkişafına böyük töhfə vermişdir. Təranə Bayramova bildirib ki, Heydər Əliyev mədəniyyəti millətin yaddaşı, kimliyi və mənəvi dayağı kimi dəyərləndirərək bu sahənin inkişafına sistemli yanaşmanı əsas tutmuşdur. O, əlavə edib ki, bu siyasətin bu gün də ölkə rəhbərliyi tərəfindən davam etdirilməsi regionlarda mədəni mühitin inkişafına mühüm təsir göstərir.

Tədbirdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Humay Aslanova, Düz Qırıqlı kənd Uşaq Musiqi Məktəbinin direktoru Xəyal



Nağıyev, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Günel Qasımova, MKS-nin (Mərkəzləşdirilmiş Kitabxana Sistemi) şöbə müdiri Aynurə Yahyayeva Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə göstərdiyi diqqət və qayğının hər zaman sistemli və davamlı şəkildə həyata keçirildiyini vurğulayaraq qeyd ediblər ki, bu siyasət nəticəsində ölkənin müxtəlif bölgələrində mədəniyyət mərkəzləri, muzeylər və digər mədəniyyət ocaqları yaradılmış, milli-mədəni irsin qorunması istiqamətində mühüm işlər görülmüşdür. Bu siyasət bu gün də uğurla davam etdirilir və regionlarda mədəni həyatın canlanmasına xüsusi töhfə verir.

Tədbirin sonunda Tovuz rayon təşkilatının ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar təqdim edilmiş, sonra tədbir mədəniyyət ustalarının ifaları ilə davam etdirilib.

***“Tovuz”***

# ERMƏNİLƏR TƏRƏFİNDƏN OĞURLANAN FOLKLORUMUZ

**Sözün də yaranma və inkişaf yolu, tarixi təsir hüdudları, nəhayət, öz müstəqilliyi, suverenliyi uğrunda mübarizə üsulları var. Bu cür yanaşanda sözün tarixi dünyanın və adamların tarixinə çox bənzəyir.**

Məşhur fransız yazıçısı Antuan de Sent Ekzyüperi yazır ki, bir almanın budaqda tumurcuq bağlayıb, çiçək açmasından başlayaraq, meyvəyə dönüb budaqdan düşməsinə qədərki tarix yazılsa , bir xalqın tarixindən balaca olmayan bir kitab yaranardı.

Məncə, söz də belədir və adi bir sözün tarixi onun yaradan və yaşadan xalqın tarixi qədər mürəkkəbdir.Qədim bir tarixə malik olan .Azərbaycan xalqının soykökündə duranlar tarixin ən dərin qatlarından tutmuş bu günə qədər dostla dost, onun acısına, şirininə ortaq, düşməninə isə amansız olmuşdur. Tarixdə xalqımızın mədəniyyətini düşmənlərə bağışladığımız günlər bizə baha başa gəlir.Azərbaycan xalqı bağlşlanmaq hissinin acısını da, böyüklüyünü də duymuşdur. Bu “qan yaddaşı” yüzilliklər boyu soydan -soya verilir və o xalqın özgürlüyünü dərk edir.

Ədəbiyyatşünaslığımızın görkəmli simalarından biri olan Mirəli Seyidov təhsilini Yeravanda almış, ilk gənclik illərində erməni xalqının dilinə, ədəbiyyatına və incəsəntinə Azərbaycan mədəniyyətinin təsiri ilə maraqlanmış ,neçə-neçə erməni aşığına türkcə - azərbaycanca yazib, oxumağı həvəsləndirən bu təsirin köklərini öz əsərlərində göstərmişdir .Qədim erməni dili qrabardakı türk dilindən alınma sözləri öyrənən bir sıra erməni dilçiləri dillərini bu dilin təsiri ilə əlaqələndirirlər.Bu fikiri inkişaf etdirən M.Seyidov o vaxt belə bir haqlı nəticəyə gəlmişdir ki, əgər türk dili hələ V-VI əsirlərdə erməni dilinə təsir göstərirdisə, deməli , bu geniş yayılmış, siyasi -ictmai və mənəvi duruma görə daha nüfuzlu bir dil olmuşdur .Böyük və tükənməz yaradıcılıq qüvvəsinə malik olan Azərbaycan xalqının yaratdığı mənəvi zənginliklər içərisində şifahi ədəbiyyat əsas yerlərdən birini tutur. Azərbaycan şifahi xalq ədəbiyyatı elə bir pak və parlq aynadır ki, burda xalqın həyat və məişəti , duyğu və düşüncələri öz bədii ifadəsini tapmışdır .

XVII-XVIII əsrlərdən üzü bəri erməni ədəbiyyatı yaranmağa başladığı dövrlərdən bu xalq Azərbaycan dilini öyrənmiş və bu dildə öz folklorunu yaratmışdır . Buna erməni aşıqlarının Azərbaycan dilində şeirlər yazmağı və məclislərdə Azərbaycan dilində mahnılar oxumağı bariz nümunədir. Azərbaycan erməni aşıq poyezyasının əsası Sayat Novanın adı ilə bağlıdır .O, bu məktəbin başçısı olmuşdur .Həmin məktəbə daxil olan erməni aşıqlarının xarakterik xüsusuyyətləri ondan ibarətdir ki, onlar Azərbaycan dilini gözəl bilir , bu dilidə mahnılar oxuyurdular .Qurgen Levonyan “ Erməni aşıqları və onlarln sənətkarlığı” kitabında yazır :” Özlərinin ermənicə mahnılarını isə Tiflis ləhcəsində yazaraq ona çoxlu sayda fars və Azərbaycan sözləri qatırdılar .Bu aşıqlar həm azərbaycanca, həm də ermənicə yazmağı bacarmış ,hər iki dildə qoşmalar , gəraylılar, müxəmməslər yaratmışlar.Lakin ermənilərdə elə aşıqlar var idi ki, onlar yalnız Azərbaycan dilində şeirlər oxuyurmuşlar .Bundan əlavə məcislərdə özlərini Azərbaycan adı ilə təqdim edirmişlər.

Bunlardan Sayat Nova ( əsl adı Harutyun) .Bağır oğlu (Drastamand) ,Əmir oğlu ( Havanes), Allahverdi (Seroş),Dədə Turab (Karapet),Çərkəz oğlu (Vartan),Aşıq Kamil (Baqdasar),Bünyad oğlu(Ohancan),Aşıq Şirin (Hovanes),Aşıq Ləriz(Anbartsum),Aşıq Zərgər(Abraham).

Bu aşıqların şeirlərində Azərbaycan aşıqlarının güclü təsiri aydin şəkildə nəzərə çarpır .Hətta nəsihətlərdən basqa,bənd və misraların plaqiatcasına öz adlarına çıxmaqları da zaman -zaman onların xeyrinə işləmişdir.Bunlara misal olaraq ,Aşıq Çubuqçu oğlu( Vartan)Şəmsəddin rayonunun Muses kəndindən olub.

“Şarabanı” adlı azərbaycanca əldə olunmuş şeirindən iki bənd:

Başına döndüyüm , qurban olduğum .
Sallan gedək bizə, ay Şarabanı.
Qadası aldığım,heyran olduğum.
Sallan gedək bizə, ay Şarabanı.

Atan məsdəndir, qardaçın ağa .
Yükləri qatılıb gedirlər dağa .
Hava buludlaşıb qorxuram yağa.
İslanar üzündə tel Şarabanı.

Nöqsanlar olmağına baxmayarq erməni aşıqları öz dillərində yox ,məhz Azərbaycan dilində şeir deyib , mahnı oxumağı üstün sayırdılar.

Qətiyyətlə demək lazımdır ki, Q.Levonyan ,ümumiyyətlə , aşıq ədəbiyyatı haqqımda belə yazır:“ Ədəbiyyat öz məzmunu və şəkil xüsusiyyətlərinə , .Aərbaycan və qismən də İranda yaşayan azərbaycanlı aşıqların misilsiz sənətkarlıq nümunələri çox inkişaf etmiş və ən yüksək zirvəyə qalxmışdır.Azərbaycan aşıq mahnıları, o cümlədən Qurbaninin .Ağ Aşığın .Sarı Aşığın Aşıq Abbas Tufarqanlının ,Aşıq Alının ,Aşıq Ələsgərin və onlarla başqa aşıqların şeirləri yüz illər boyu erməni xalqının əzbəri olmuşdur .

Azərbaycan aşıq havaları erməni aşıqları tərəfindən o qədər sevilmisdir ki , 70-də çox Azərbaycan aşıq havasının hamsından məharətlə istifadə etməyi bacarmış , sözlərini Azərbaycan dilində yazdıqları şeirləri və bizim aşıqların şeirlərini də öz adlarına çıxarıb , bu havalara uyğun oxumuşlar.

Paşa köçdü- gəraylı
Aşıq Hüseyini( Şəmkirli)- qoşma
Bayramı- qoşma
Borçalı - qoşma
Qaytarma - qoşma
Qəmərcan- qoşma( Aşıq Ələsgərin havası)
Şah Xətai divani- divani
Orta divani- divani
Dilqəmi-qoşma
Duraxanı- qoşma
Dübeyti- gəraylı
Əhmədi -qoşma
İrəvan çuxuru- qoşma
Keşişoğlu- qoşma
Kərəmi-Kərəm qoşmaları
Yanıq Kərəmi -Kərəm qoşmaları
Hicran Kərəmi - Kərəm qoşmalar
Ərəsbər Kərəmisi- Kərəm qoşmaları
Kərəm gözəlləməsi (şikəstəsi)-qəmli Kərəm qoşmaları
Koroğli -Koroğlu qoşmaları
Dəli Koroğlu-Koroğlu qoşmaları
Zərbi Koroğlu -Koroğlu qoşmaları
Cəngi Koroğlu- Koroğlu qoşmaları
Köhnə gözəlləmə -qoşma
Gəraylı- gəraylı
İran gəraylısı- gəraylı
Gilənar-gəraylı
Gödəkdonlu(Kəvəri) - gəraylı
Göyçə gözəlləməsi-qoşma
Göyçə gülü -qoşma
Güllü qafiyə- qoşma .(Aşıq Balehin.”Dedim, dedi” qoşması bu havada oxunur)
Lalaxanım-qoşma
Mansırı-qoşma
Məmmədbağırı -qoşma
Məmməd Hüseyini (göyçəli)- qoşma
Misri- qoşma
Muğamat- qəzəl
Müstəzad-müstəzad
Müxəmməs- müxəmməs
Orta müxəmməs- müxəmməs
Nadanbala- qoşma
Naxçıvanı - qoşma
Nəcəfi- qoşma
Ovşarı- qoşma
Sarıgül -gəraylı
Baş sarıtel- gəraylı
Orta sarıtel-gəraylı
Ayaq sarıtel-gəraylı
Səməndəri-qoşma
Təxmis-təxnis
Təcnis-təcnis
Urfanı-qoşma
Heydarı- gəraylı
Baş cəlili- qoşma
Ayaq cəlili-qoşma
Şahsevən-gəraylı
Şəmşirin-qoşma
Şərili-Aşıq Ələsgər qoşamları
Orta şənili -qoşma
Vaqif şikəstəsi-qoşma
Abbas şikəstəsi-Tufarqanlı Abbas havası
Qaraçı-qoşma
Yurd yeri -gəraylı
Şəşəngi-qoşma

Professor Həmid Araslı çox haqlı olaraq “ Aşıqlar” kitabında (1957-ci il) qeyd etmişdir ki, “Azərbaycan aşığının zəngin yaradıcılığı təkcə Azərbaycanda şəhərlərdə deyil . Zaqafqazıya xalqının içərsində dərin məhəbbət və hörmətlə qarşılanmış,aşıqlıq sənəti erməni və gürcü xalqlarının içərisində də inkişaf etmişdir.

Ələkbər Yeravanlı “Azərbaycan və erməni şifahi xalq ədəbiyyatında əlaqələr “ kitabında (1959-ci il)yazır ki,” Ermənilər Azərbaycan aşıqlarının mahnilarına Xaçatur Abovyanın sözlərilə desək,elə qulaq asır , elə valeh olurdular ki, az qalır ağızlarının suyu axsın “.(Abovyanın “Ermənistan yaraları “ kitabı )1939-cu il.

Ermənilər zaman -zaman bizim şifahi xalq ədəbiyyatı nümunəsi olan aşıq şeir və havalarını özəlləşdirməklə kifayətlənməyib, hətta dahi Nizaminin yazdığı poemaları və ordakı qəhramanları da utanmadan ermənləşdiriblər .Nizaminin “ Yeddi gözəl “ poemasının motivini erməni dilində “Xeyir- Şər” hekayəsində Xeyir erməni sənətkardır,Şər isə ona mane olan bir türkdür. Erməni variantında kürd ailəsi . Xeyirin müalicəsi kimi hadisə ümumiyyətlə, yoxdur.

“Xosrov və Şirin” poemasında Şirin ermənidir. Onun adı Sirum kimi gedir.Xaçatur Abovyan yazır: “Azərbaycan folklorundan toplayıb erməni dilində tərcümə etdiyim hər nə ki,var , bizim xalqın danışdığı şeylərdir, tərcümələrimi elə dildə etmişəm ki, xalqımızın ürəyincə olsun.Bayatiları o fikirlə tərcümə etmişəm ki, məclisdə süfrə başında azərbaycanlısayağı belə şeylər deyirlər, yaxşı olar ki, bunları ermənilər ermənisayağı desinlər ki, yavas-yavaş dilləri şirinləşsin, çünki mahnıdan başqa heç nə dili vu qədər şirinləşdirməmişdir.”

Azərbaycan şifahi xalq ədəbiyyatını mənimsəyən erməni yazıçılarıdan Q.Ağayan “Koroğlu haqqında hekayələr” yazısında belə demişdir: “Koroğlu hər yerdə və bütün xalqlara məlumdur. Onu türklər türk , azərbaycanlılar Azərbaycan , kürdlər kürd, ermənilər isə türkləşmiş erməni hesab edirdilər . Onun mahnilarını hər xalq öz dilində oxuyur , təkcə ermənilər Azərbaycanca oxuyurlar.”

Erməni yazarı Sarmenin “Koroğlu” poemasında hadisələr Ərzurumda baş versə də ,Azərbaycan Koroğlusunun ilk qolu olan “Alı kişi” qolu tamam dəyişdirilərək Alının adı Xasan olur . O, erməni qızı ilə evlənir və onların bu izdivacdan gələcəyin Koroğlusu dünyaya gəlir.

Bu cür alçaqcasına tarixi təhrif etmək sanki bu xalqın alnına yazılıb . Əsrlər boyu öz qonuşularından -türklərdən və azərbaycanlılardan şifahi xalq ədəbiyyatından tutmuş yeməklərə kimi, musiqi alətlərinə kimi oğurlamaq ancaq və ancaq bu üzdəniraq qonşumuz olan ermənilərə məxsusdur.

Bu yaxınlarda Moskvanın ORT kanalında “ Zdorovye” televerlişində Yelena Malışova üzüm yarpağı dolmasının erməni mətbəxinin şah yeməyi kimi təqdim edir və milli paltarda erməni qızı əlində bir qab dolma “ Uzundərə” havasının sədaları altında onu qonaqlara təqdim edir .Bizimkilər isə onu öz kanallarımızda göstərməklə kifayətlənir.

Ümumiyyətlə , ermənilər həmişə - ta qədim zamanlardan öz yalanlarını gerçəkləşdirməyi, tarixi saxtalaşdırmağı məharətlə bacarmışlar.Biz isə hələ də həqiqətlərmizin dünya ictimayətinə çatırmaqda acizik .Bu , isə jurnalistlərin və bizim hamımızın , ələxsusus da tarixçilərmizin birbaşa borcudur.

***Mahmud Mayıloğlu***

# " TOVUZ KREDİT İTTİFAQI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİnin maliyyə hesabatları və auditor rəyi

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

THE CHAMBER OF AUDITORS OF AZERBAIJAN REPUBLIC
"TNM AUDİT" LLC

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI
"TNM AUDİT" MMC

## MÜSTƏQİL AUDİTORUN HESABATI "TOVUZ KREDİT İTTİFAQI " Məhdud Məsuliyyətli Cəmiyyətin( VÖEN 7300550531) təsisçilərinə

### Şərti müsbət rəy (Kod FKwkMfFVIN)

Mən "TOVUZ KREDİT İTTİFAQI " Məhdud Məsuliyyətli Cəmiyyətin (VÖEN 7300550531) (Bundan sonra - "Cəmiyyət") 31 dekabr 2024-cü il tarixinə maliyyə hesabatlarının auditini aparmışam. Hesab edirəm ki, hesabatımızın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir .

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik**

Diqqət koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəldilməlidir. Hazırki şəraitdə Cəmiyyətin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcuddur. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

**Şərti müsbət rəy üçün əsaslar**

Cəmiyyət öz maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına na müvafiq tərtib etməlidir. Təqdim olunmuş hesabatın həmin standartlara tam müvafiqliyi təmin olunmalıdır.

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və biz digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

# " TOVUZ KREDİT İTTİFAQI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİnin maliyyə hesabatları və auditor rəyi

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**TNM AUDİT MMC-nin direktoru** — **Talıbov Nəcəf Musa oğlu**
**Bakı, Azərbaycan Respublikası**
*İcazə: AT/182, 15.01.24*
12 fevral 2025-ci il

Forma 4

"Tovuz kredit Ittifaqı" Məhdud Məsuliyyətli Cəmiyyəti
Hesabat dövrü: 4-cü rüb 2024-cü il
Hesabatın tərtib edilmə tarixi: 01 yanvar 2025-ci il

**Mənfəət və zərər haqqında Hesabat**

*(manatla)*

| Maddələr | Hesabat rübü | Ilin əvvəlindən hesabat rübü daxil olmaqla |
|---|---|---|
| **I.Faiz gəlirləri cəmi:** | **66349** | **241927** |
| a) verilmiş kreditlər üzrə | 66349 | 241927 |
| b) Dövlət qiymətli kağızları üzrə | | |
| **2. Faiz xərcləri cəmi:** | **0** | **0** |
| a) kreditlər üzrə | 0 | 0 |
| b) digər | 0 | 0 |
| **3. Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)** | **66349** | **241927** |
| **4. Qeyri-faiz gəlirlərinin cəmi:** | **15801** | **60308** |
| a) qeyri-adi gəlirlər | 12820 | 48197 |
| b) digər gəlirlər | 2981 | 12111 |
| **5. Qeyri-faiz xərclərinin cəmi:** | **68200** | **223825** |
| a) əmək haqqı və ona bərabər tutulan xərclərin cəmi | **60320** | **194412** |
| a1) əmək haqqı və əlavələr | 51050 | 164421 |
| a2) mükafatlar | 0 | 0 |
| a3) sosial tə"minat xərcləri | 9270 | 29992 |
| a4) kompensasiya və müavinətlərin digər növləri | | |
| b) əsas vəsaitlərlər bağlı xərclər | **4200** | **15900** |
| b1) icarə haqqları | 4200 | 15900 |
| b2) amortizasiya | 0 | 0 |
| b3) əsas vəsaitlərlə bağlı digər xərclər | 0 | 0 |
| c) əməliyyat və komisyon xərcləri | 312 | 1003 |
| d) digər xərclər | 3368 | 12510 |
| **6. Əməliyyatlardan daxil olan mənfəət (zərər) (3-cü sətir üstəgəl 4-cü sətir çıxılsm 5-ci sətir)** | **13950** | **78410** |
| 7. "Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırmalar (xərclər) | 16316 | 63522 |
| **8.Vergilər çıxılanadək mənfəət (zərər) (6-cı sətir çıxılsm 7-ci sətir)** | **-2366** | **14888** |
| 9. Mənfəətdən ödənilən vergilər | 2978 | 2978 |
| **10. Vergilər çıxılandan sonra xalis bölüşdürülməmiş mənfəət (zərər) ( 8-ci sətir çıxılsm 9-cu sətir)** | **-5344** | **11911** |

**İzahat:** 8-ci sətr üzrə zərər yaranarsa, bu məbləğ 10-cu sətrə köçürülür

İdarə Heyətinin Sədri — *Qələndərov Cavid Novruz oğlu*
İdarə Heyətinin məsul üzvü: — *Sadıqzadə İlkin Şahin oğlu*

Auditor
12 fevral 2025-ci il

Forma 3

"Tovuz kredit Ittifaqı" Məhdud Məsuliyyətli Cəmiyyəti
Hesabat dövrü: 4-cü rüb 2024-cü il
Hesabatın tərtib edilmə tarixi: 01 yanvar 2025-ci il

**Balans**

| | BALANSIN MADDƏLƏRİ | Məbləğ |
|---|---|---|
| | **AKTİVLƏR** | |
| 1 | Nağd pul | 19774 |
| 2 | Bank hesabları | 442 |
| 3 | Kreditlərin cəmi | 998573 |
| 4 | Xüsusi ehtiyat fondu | 72351 |
| 5 | Xalis kreditlər (kreditlər çıxılsın "Xüsusi ehtiyat fondu") | 926223 |
| 6 | Dövlət qiymətli kağızları | |
| 7 | Əsas vəsaitlər | 1534 |
| 8 | Hesablanmış faizlər | 15641 |
| 9 | Digər aktivlər | 264 |
| 10 | **Aktivlərin cəmi:** | 963877 |
| | **PASSIVLƏR** | |
| | **Öhdəliklər** | |
| 11 | Alınmış kreditlər | 0 |
| 12 | Ödəniləcək faizlər | |
| 13 | Digər öhdəliklər | 0 |
| 14 | **Ohdəliklərin cəmi:** | 0 |
| | **Kapital** | |
| 15 | Nizamnamə kapitalı | 786683 |
| 16 | Bölüşdürülməmiş mənfəət (zərər)* | 177194 |
| 16.1 | Keçmiş illərin xalis mənfəəti (zərər) | 165283 |
| 16.2 | Cari ilin xalis mənfəəti /zərəri | 11911 |
| 17 | **Kapitalın cəmi:** | 963877 |
| 18 | **Passivlərin cəmi:** | 963877 |

* KI zərərlə işləyərsə, bu zərər mənfi işarə ilə mötərizədə əks etdirilməlidir

İdarə Heyətinin Sədri: — *Qələndərov Cavid Novruz oğlu*
İdarə Heyətinin məsul üzvü: — *Sadıqzadə İlkin Şahin oğlu*

Auditor
12 fevral 2025-ci il

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü sərbəst auditor Əhmədov Hafiz Məhəmməd oğlu
21,12,2021 il tarixli İcazə № SA/072
ünvan: Gəncə ş. H.Əliyev meydanı

## MÜSTƏQİL AUDİTORUN HESABATI

*Qovlar Kredit İttifaqı MMC-nin İdarə heyətinə :*

### Maliyyə hesabatlarının auditinə dair hesabat

**Rəy**

Mən, Qovlar Kredit İttifaqı MMC -nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında balans hesabatından, məcmu gəlirlər haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım. Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Qovlar Kredit İttifaqı MMC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərimi əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən [yurisdiksiyadakı] maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri mənim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermişəm

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mən iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat verirəm.

Mən həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməyin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Sərbəst auditor Əhmədov Hafiz Məhəmməd oğlu
Tovuz rayonu Qovlar qəsəbəsi
10 mart 2025-ci il

**Forma 4**

Kredit ittifaqının adı: "Qovlar-Kredit"İttifaqı MMC
Hesabat dÇvrğ: 4-cu rub 2024
Hesabatın tərtib edilmə tarixi: 08.01.2025

**Mənfəət və zərər haqqında Hesabat**

*(manatla)*

| Maddələr | Hesabat rübü | İlin əvvəlindən hesabat rübü daxil olmaqla |
|---|---|---|
| **I.Faiz gəlirləri cəmi:** | **4921** | **23152** |
| a) verilmiş kreditlər ğzrə | 4921 | 23152 |
| b) DÇvlət qiymətli kağızları ğzrə | | |
| **2. Faiz xərcləri cəmi:** | **0** | **0** |
| a) kreditlər ğzrə | 0 | 0 |
| b) digər | 0 | 0 |
| **3. Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)** | **4921** | **23152** |
| **4. Qeyri-faiz gəlirlərinin cəmi:** | **230** | **1098** |
| a) qeyri-adi gəlirlər | 0 | 0 |
| b) digər gəlirlər | 230 | 1098 |
| **5. Qeyri-faiz xərclərinin cəmi:** | **5759** | **23478** |
| a) əmək haqqı və ona bərabər tutulan xərclərin cəmi | **5549** | **22197** |
| a1) əmək haqqı və əlavələr | 4142 | 16569 |
| a2) mğkafatlar | | |
| a3) sosial tə"minat xərcləri | 929 | 3717 |
| a4) kompensasiya və mğavinətlərin digər nÇvləri | 478 | 1911 |
| b) əsas vəsaitlərlər bağlı xərclər | **0** | **0** |
| b1) icarə haqqları | | |
| b2) amortizasiya | | |
| b3) əsas vəsaitlərlə bağlı digər xərclər | | |
| c) əməliyyat və komisyon xərcləri | | |
| d) digər xərclər | 210 | 1281 |
| **6. Əməliyyatlardan daxil olan mənfəət (zərər) (3-cü sətir üstəgəl 4-cü sətir çıxılsın 5-ci sətir)** | **(608)** | **772** |
| 7. "Xğsusi ehtiyat fondu"nun yaradılmasına ayırmalar (xərclər) | | |
| **8.Vergilər çıxılanadək mənfəət (zərər) (6-cı sətir çıxılsın 7-ci sətir)** | **(608)** | **772** |
| 9. Mənfəətdən Çdənilən vergilər | | |
| **10. Vergilər çıxılandan sonra xalis bölüşdürülməmiş mənfəət (zərər) ( 8-ci sətir çıxılsın 9-cu sətir)** | **(608)** | **772** |

**İzahat:** 8-ci sətr ğzrə zərər yaranarsa, bu məbləğ 10-cu sətrə kÇçğrğlğr

İdarə Heyətinin Sədri — *Fərid İsa oğlu Məstanov*
İdarə Heyətinin məsul ğzvğ: — *Eşqin İsa oğlu Qarayev*

**Forma 3**

Kredit İttifaqının adı: "Qovlar-Kredit"İttifaqı MMC
Hesabat dÇvrğ: 4-cu rub 2024
Hesabatın tərtib edilmə tarixi: 08.01.2025

**Balans**

| | BALANSIN MADDƏLƏRİ | Məbləğ |
|---|---|---|
| | **AKTİVLƏR** | |
| 1 | Nağd pul | 5584,45 |
| 2 | Bank hesabları | 0,1 |
| 3 | Kreditlərin cəmi | 79304 |
| 4 | Xğsusi ehtiyat fondu | 0 |
| 5 | Xalis kreditlər (kreditlər çıxılsın "Xğsusi ehtiyat fondu") | 79304 |
| 6 | DÇvlət qiymətli kağızları | |
| 7 | Əsas vəsaitlər | 198 |
| 8 | Hesablanmış faizlər | 500 |
| 9 | Digər aktivlər | 0 |
| 10 | **Aktivlərin cəmi:** | 85585 |
| | **PASSIVLƏR** | |
| | **Öhdəliklər** | |
| 11 | Alınmış kreditlər | 0 |
| 12 | Ödəniləcək faizlər | |
| 13 | Digər Çhdəliklər | 0 |
| 14 | **Ohdəliklərin cəmi:** | 0 |
| | **Kapital** | |
| 15 | Nizamnamə kapitalı | 75302 |
| 16 | BÇlğşdğrğlməmiş mənfəət (zərər)* | 10283 |
| 16,1 | Keçmiş illərin xalis mənfəəti (zərər) | 9511 |
| 16,2 | Cari ilin xalis mənfəəti /zərəri | 772 |
| 17 | **Kapitalın cəmi:** | 85585 |
| 18 | **Passivlərin cəmi:** | 85585 |

* Kİ zərərlə işləyərsə, bu zərər mənfi işarə ilə mÇtərizədə əks etdirilməlidir

İdarə Heyətinin Sədri: — *Fərid İsa oğlu Məstanov*
İdarə Heyətinin məsul ğzvğ: — *Eşqin İsa oğlu Qarayev*


# OXUCULARIN NƏZƏRİNƏ!

*Əziz oxucular!*
*2025-ci il üçün "Tovuz" qəzetinə abunə yazılışı davam edir.*
*Qəzetin illik abunə haqqı 40 manatdır.*
*Qəzetə Kapitalbankın Tovuz filialında və redaksiyada abunə yazılmaq olar.*
*"Tovuz" qəzeti redaksiyası.*



BAŞ REDAKTOR: Çingiz Qəribli

Ünvanımız: Tovuz şəhəri, Şəhriyar küçəsi, 3.
Telefon: (022) 312-35-23
tovuz.gazeti@mail.ru

Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlar və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələmiş və "Son dakka" mətbəəsində çap olunmuşdur.
**Sifariş:** 253
**Tiraj:** 1000